# AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİNİN (UNEC) NÜFUZLU XARİCİ UNİVERSİTETLƏRDƏ 1 İL MÜDDƏTİNƏDƏK TƏDQİQAT APARMAQ ÜÇÜN DƏVƏT ALMIŞ PROFESSOR-MÜƏLLİM HEYƏTİNİN TƏDQİQAT APARDIQLARI MÜDDƏTDƏ ƏMƏKHAQLARININ SAXLANILMASI HAQQINDA

## Q A Y D A L A R

### 1. Ümumi müddəalar

**1.1.** Bu qaydaların əsas məqsədi nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün göndərilən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyətinin xaricdə tədqiqat apardığı müddətdə UNEC-dəki əməkhaqlarının saxlanılması barədə əsas qayda və prosedurları müəyyən etməkdir.

**1.2.** Bu qaydalar çərçivəsində universitetin professor-müəllim heyətinin nüfuzlu universitetlərə 1 il müddətinə göndərilməsi aşağıdakı əsaslarda həyata keçirilir:

**1.2.1.** Nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün elmi dərəcəsindən və tutduğu vəzifədən asılı olmayaraq UNEC-in professor-müəllim heyəti üzvü müraciət edə bilər;

**1.2.2.** Nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün müraciət edən şəxslərin UNEC-də ən azı 3 il elmi-pedaqoji iş təcrübəsinin olması vacibdir;

**1.2.3.** Göndərilən şəxsin (bundan sonra - tədqiqatçı) tədqiqat dövründə xaricdə olduğu müddətdə (1 ildən çox olmamaq şərti ilə) UNEC-dəki iş yeri və elmi-pedaqoji fəaliyyətinə görə vəzifə maaşı saxlanılır (differensial əməkhaqqı sistemindəki əlavələr nəzərə alınmaqla);

**1.2.4.** Tədqiqatçının yenidən xarici universitetlərdə tədqiqat aparmaqla bağlı müraciət etməsi üçün həmin şəxsin öncəki tədqiqatdan sonra UNEC-də 1 il pedaqoji fəaliyyət göstərməsi, “Scopus″elmi bazasına daxil olan jurnallarda 3, və ya “Web of Science” platformasına daxil olan jurnallarda 2 məqaləsinin nəşr olunması şərtdir.

## 2. Müraciətlərə baxılma prosedurları

**2.1.** Nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış professor-müəllim heyətinnin üzvü həmin universitetlərə göndərilmə üçün ərizə ilə UNEC rektoruna ən geci 1 ay əvvəldən müraciət etməlidir.

**2.2.** Müraciət edən şəxs tərəfindən təqdim edilən bütün müvafiq sənədlərə aidiyyəti strukturlar tərəfindən rəy alındıqdan sonra elm və innovasiyalar üzrə prorektorun təqdimatına əsasən əmrlə rəsmiləşdirilir və bu Qaydaların 3-cü bölməsinin tələblərini təmin etmək üçün həmin şəxs ilə müqavilə bağlanılır.

**2.3.** Nüfuzlu xarici universitetlərdə 1 il müddətinədək tədqiqat aparmaq üçün dəvət almış UNEC-in professor-müəllim heyəti üzvünün müraciətinə baxılarkən aşağıdakı şərtlər əsas götürülür:

**2.3.1.** Müraciət edən şəxs ərizəyə gedəcəyi universitetin dəvət məktubunu və göndərilmə ilə bağlı formanı (forma Qaydalara əlavə olunur) əlavə etməlidir;

**2.3.2.** Tədqiqatın aparılacağı universitet dünya universitetlərinin reytinq sıralamasında (QS World University Rankings) həm ümumi, həm də ixtisas üzrə ilk 600 universitet siyahısında olmalıdır;

**2.4.** Müraciət edən şəxsin təqdim etdiyi sənədlər bu Qaydalardakı şərtlərə cavab vermədiyi halda onun müraciəti qəbul edilmir və imtinanın səbəbi yazılı şəkildə göstərilməklə ərizəçiyə təqdim olunur.

**3. Tədqiqatçının universitet qarşısında öhdəlikləri və məsuliyyəti**

**3.1.** Tədqiqatın sonunda hesabat təqdim etməlidir;

**3.2.** Tədqiqat bitdikdən sonra ən azı 2 il müddətində UNEC-də çalışmalıdır. Müstəsna hallarda UNEC rektorunun razılığı ilə bu müddət 1 ilə qədər endirilə bilər.

**3.3.** Öhdəliklər müqavilə ilə tənzimlənir (Müqavilə Qaydalara əlavə olunur).

<table>
<tr><td colspan="4" align="center">FORMA</td></tr>
<tr><td colspan="4" align="center">Müraciət edən şəxsin</td></tr>
<tr><td>Adı, soyadı, ata adı</td><td></td><td>Ali (baza) təhsili</td><td></td></tr>
<tr><td>Fakültəsi</td><td></td><td>Kafedrası</td><td></td></tr>
<tr><td>Vəzifəsi</td><td></td><td>Elmi adı</td><td></td></tr>
<tr><td>Elmi dərəcəsi</td><td></td><td>Dil bilikləri</td><td></td></tr>
<tr><td>Telefonu</td><td></td><td>E-poçt ünvanı</td><td></td></tr>
<tr><td>Göndərilmə tarixi</td><td></td><td>Bitmə tarixi</td><td></td></tr>
<tr><td colspan="4" align="center">Tədqiqat mövzusunun</td></tr>
<tr><td>Adı</td><td colspan="3"></td></tr>
<tr><td>Elmi istiqaməti</td><td colspan="3"></td></tr>
<tr><td>Bu istiqamətdə apardığı elmi işlər barədə məlumat (sənədə qoşma kimi əlavə oluna bilər)</td><td colspan="3"></td></tr>
<tr><td colspan="4" align="center">Tədqiqat aparacağı universitetin</td></tr>
<tr><td>Adı</td><td></td><td>Dünya universitetlərinin reytinq sıralamasında (QS World University Rankings) yeri</td><td></td></tr>
<tr><td>Yerləşdiyi ölkə</td><td></td><td>Tədris dili</td><td></td></tr>
<tr><td>Yerləşdiyi şəhər</td><td></td><td>İnternet ünvanı</td><td></td></tr>
<tr><td colspan="4" align="center">Formaya ərizə və dəvət məktubunu əlavə etməniz xahiş olunur.</td></tr>
</table>

***Ərizəçininn imzası:***